**Şəddat CƏFƏROV**
**Şahrza AĞAYEV**

# HADİSƏLƏR... DÜŞÜNCƏLƏR



Bakı –Gənclik–2008

**Az**
**Ş.40**
**BBK 45.2.2**

*Məsləhətçi:*
**Ağahüseyn HƏSƏNOV, pedaqoji elmlər doktoru, professor**

**Ş.40. C.ŞƏDDAT, A.ŞAHRZA.**
**HADİSƏLƏR... DÜŞÜNCƏLƏR.**
–Bakı: «Gənclik» nəşriyyatı, 2008.–60 səhifə.

«Hadisələr... düşüncələr» toplusu Azərbaycanın ilk poliqrafçı alimi Şəddat Cəfərovun seçilmiş hekayələri əsasında hazırlanmışdır. Hekayələrdə cərəyan edən hadisələr ətrafında oxucuları düşündürmək üç ün maraqlı motivasiyalı su- allar, tapşırıqlar və test nümunələri kitabda yer almışdır. Kitab məktəblilər, müəllimlər, tələbələr və geniş oxucu auditoriyası üçün faydalı vəsaitdir.

**Ş $\frac{47020600202}{M\ 653\ (07).2008}$ - Qrifli nəşr**

**İSBN 5-8002-1588-5**

**© Ş.Cəfərov, 2008.**

# ÖN SÖZ

*İnsanın mənəvi simasını ifadə edən söz onun şəxsiyyət kimi formalaşmasında mühüm rol oynayır. Məna çalarlarına görə sözlərin kəmiyyət və keyfiyyət göstəriciləri sonsuzdur.*

*Adi danışıqda əxlaq anlayışı çoxsaylı sinonim sözlərdə ifadəsini əks etdirir. Söz əxlaq tərbiyəsində öz haqqı ilə səciyyələnərək adamın özünə, başqalarına, vətənə, əməyə, dövlətə və s. olan münasibətinin şüurlu surətdə ifadəsini ehtiva edir. Bəşər tarixində şifahi və yazılı ədəbiyyatımıza daxil olan sözlər həyat hadisələrindən qidalanaraq insanları düzlüyə, ədalətə, mənəvi saflığa sövq etmişdir. Bütün nəcib əxlaqi sifətlərin tərbiyə olunmasında hər sözün payı vardır. Yazıçıların, şairlərin, qələm və söz sahiblərinin bizə ərməğan etdikləri dəyərli fikirlərində sözün dəyərini*

*dərk edib cəmiyyətdə xeyirxah əməlləri ilə nüfuz sahibi olmaqdan mənəvi ucalıq yoxdur. Bu baxımdan çoxsaylı hekayələrin müəllifi olan Şəddat Cəfərovun yaradıcılığı maraqlıdır. Azərbaycanın ilk poliqrafçı alimi – Şəddat müəllim elmi, istehsalat-pedaqoji fəaliyyəti ilə yanaşı, üzləşdiyi, müşahidə etdiyi, hamının diqqətində olan, xarakterləri ifadə edən, bütün dövrlər üçün səciyyəvi görünən hadisələri ustalıqla, yığcam şəkildə qələmə almaq bacarığına malikdir. Kiçik hekayələrində ifadə etdiyi obrazlarda eyni adamın mənəvi keyfiyyətlərinin ictimaiyyətdə – insanlara olan münasibətlərin süni surətdə necə dəyişdiyini qəhrəmanın dili ilə ifadə edir. Özünütərbiyəni önəmə gətirir.*

*Qloballaşan dünyada informal təhsilə son dərəcə ciddi ehtiyac vardır. Biz uzun illər şəxsiyyətin formalaşmasında iki tərəfin qarşılıqlı fəaliyyətinə (öyrədən – öyrənən)*

*geniş yer vermişik. Müasir dövrdə dəyərli əsərlərin bələdçiliyindən faydalanaraq hər bir insan öz tədqiqatçılıq qabiliyyətini inkişaf etdirərək informal yolla təhsillənməli, tərbiyələnməli və idrak baxımından inkişaf edərək şəxsiyyətə çevrilməlidir. Haqqında söhbət açdığımız yaradıcı alim Şəddat Cəfərovun işıq üzü görmüş dəyərli hekayələrində təsbit olunan həyat hadisələrindən düzgün nəticə çıxarmaqda bələdçi kimi faydalanmağınsəmərəli yollarını oxuculara çatdırmağı məqsədəuyğun sayırıq. Müəllifin «Balamirzə yazandı», «Mədəni adam», «Qovaq ağacı», «Yaxşısı budur, dözək», «Həbib dayı və müdir bəy», «Arayış», «İmtahan», «Bəs, təhqir olunmuş qalaq?», «Ü çüncü adam», «Vəd» hekayələrində cərəyan edən hadisələrlə biz hər zamanüzləşirik,narahatçılıq keçiririk.*

*Oxucuda pedaqoji-psixoloji düşüncəni formalaşdırmaq, baş verənlərin ma-*

*hiyyətinə düzgün münasibət göstərməklə cəmiyyətin saflaşmasında hər bir fərdin şəxsi nümunəyə sahib olması, dünya mədəniyyətinə layiqli töhfələr verməsi arzu olunur. Buna görə də hər bir hekayə mətnin məzmununa uyğun olaraq düşündürücü tapşırıqlar, çalışmalar, test nümunələri daxil edilir. Hekayələr yaxın keçmişdən bəhs etdiyindən, həmin dövrə məxsus olan ifadələr olduğu kimi saxlanılır. Tarixilik baxımından zənn edirik ki, belə yanaşma məqbuldur.*

**Ş.AĞAYEV**

# QOVAQ AĞACI



Bir gün eşitdim ki, keçmiş məktəb yoldaşım Cəfərqulu Rayon Icraiyyə Komitəsinin sədri "seçilib". Bərk sevindim və öz-özümə dedim ki, ə, nə yaxşı oldu, lap yerinə düşdü. Qoy bir az vaxt keçsin, gedib xahiş edəcəyəm, bizim bərbad günə düşmüş həyətimizi abadlaşdırmaqda bizə kömək eləsin. Axı, onun da uşaqlığı bu həyətdə keçmişdi.

Elə belə də elədim. Bir aydan sonra geyinib-keçinib böyük ümidlə yollandım dostumun qəbuluna. Uzun bir dəhlizdən keçib "Rayon Icraiyyə Komitəsinin sədri" sözləri yazılmış bir qapının qənşərində dayandım. Bir az özümü yığışdırıb otağa girdim. Qəbul otağı, sən demə, bir yekə zal imiş. Sədrin qapısına yaxın yerdə gözəl bir katibə qız da oturubkitab oxuyurdu.

Salam verdim. Başını qaldırmadan "əleyküm" dedi. Incimədim. Fikirləşdim ki, yəqin kitabda özünə ən maraqlı gələn yeri

oxuyur. Bir azdan yenə qızcığazı narahat etməli oldum.

– Xanım qız, sədri görmək istəyirəm.

Laqeydcə başını qaldırıb "məşğuldur" deyib kitabı oxumağa davam etdi.

Mən stulların birində oturub gözləməyə başladım. Az keçməmiş beş-on adam növbəylə sədrin qapısını açıb içəri keçdi. Hər dəfə də katibə qız başını qaldırıb adamları süzür və yenidən öz mütaliəsini davam etdirirdi. Axırıncı adam sədrin yanından çıxanda mən də ürəklənib ayağa qalxdım, istədim içəri keçəm. Qız tez başını qaldırıbyaşına uyğunolmayankobudluqla:

– Dedim ki, sədr məşğuldur, – dedi.

Qızın bu hərəkəti heç xoşuma gəlmədi, “lənət şeytana” deyib evə qayıtdım. Yol boyu dostumla görüşə nail olmaq üçün bütün mümkün variantları götür-qoy etdim. Belə qərara gəldim ki, yaxşısı budur, səhər tezdən binanın qabağındakı qovaq ağacının yanında dayanım, sədr gəlib içəri keçəndə mütləqməni görübotağına dəvət edər.

Səhəri gün düşündüyüm kimi elədim. Xeyli gözləyəndən sonra gördüm ki, budu ha, bir qara "Volqa" gəldi dayandı icra- komun girəcəyinin düz qabağında. Məktəb dostum maşından düşüb, heç nəyə əhəmiy- yət vermədən cəld binaya girdi. Elə sürətlə yanımdan keçdi ki, heç onu səsləməyə belə macal tapmadım. Kor-peşiman geri qayıtdım. Öz-özümə təskinlik verdim, "yə- qin onun bu gün çox vacib işləri var". Sabah gələrəm. Sabahı gün də, o biri günlər də eyni səhnə təkrarlandı. Sanki Cəfərqulu üçün mən adlı məktəb yoldaşı yox imiş. Özümü ələ almağa çalışdım. «Sayanın quluyam, saymayanın ağası» məsəli ilə özümə təskinlik verdim. Və bir daha Cəfərqulunun qəbuluna düşməyə cəhd etmədim.

Ü stündən neçə illər keçdi. Günlərin bir günü sahil bağında gəzişirdim. Gördüm ki, hərif asta-asta mənə tərəf gəlir. Yaxınla- şanda çox mehribancasına görüşüb hal-əh- val tutdu. Bir qədər birlikdə var-gəl eləyib olub keçənləri yada saldıq. Sonra söhbəti

hərləyib-fırlayıb o hadisənin üstünə gətirdim. And elədi ki, doğrusu, görməmişəm. Dedim, ədə, necə görməmisən, yanında dayandığım qovaq ağacı düz qapının girəcəyində idi. Yəni o boyda ağacı da görmürdün? Dərindən köksünü ötürüb yanıqlı-yanıqlı dedi:

– Vallah, həmin o nəhəng qovaq ağacını ancaq vəzifədən çıxandan sonra görmüşəm. Səni onun yanında necə görə bilərdim?!

* * *

** Cəfərqulu şəkildəki səhnədə özünü necə aparır?*

** Sizin Cəfərqulu kimi məktəb yoldaşınız və ya tanışınız varmı? Onu necə xatırlayırsınız?*

** Yaşadığınız məhəllədə Cəfərqulu kimilərə işiniz düşübmü?*

** Siz dostlarınızın qəbulunda olarkən necə qarşılanırsınız?*

** Cəfərqululularla rastlaşırsınızmı? Münasibət bildirin.*

** Biz nə vaxt «lənət şeytana» ifadəsini işlədirik?*

** Cəfərqulu məktəb dostunu nə üçün görə bilmirdi? Ona mane olan nə idi?*

** Katibə qız öz vəzifə borcunu necə yerinə yetirirdi?*

** Çox sonralar Cəfərqulunun görmə qabiliyyəti nə səbəbdən «artdı»?*

* * *

***Cəfərqulu nəhəng qovaq ağacını nə üçün görmürdü?***

*a) işə tələsdiyinə görə;*
*b) vəzifədə olduğu üçün;*
*c) tənhalığa görə.*

***Vəzifə sizin üçün nədir?***

*a) şan-şöhrət;*
*b) sərvət toplamaq;*
*c) xidməti borc.*

# MƏDƏNI ADAM



Axır vaxtlar araq içməkdən ötrü "üçüncü adam»ı tapmaq Həsən üçün bir müşkülə çevrilib. Arağın qiymətinin kəllə-çarxa qalxdığı indiki dövrdə onu qınamalı da deyil.

Lap bu günlərdə başına bir məzəli əhvalat gəlib. Deyir, səhər-səhər mağazanın qabağında dayanmışdım ki, öz həriflərimi tapıb bir balaca başımı düzəldim. Ikinci adam əlüstü tapıldı. Qabaqlar onunla tez-tez yarımlitr boşaldardıq. Nədənsə, üçüncü adam çox gec tapıldı. Bəxtimdən başdan da bir az xarab adama oxşayırdı. Sözün düzü, ilk baxışdan gözüm su içmədi ondan. Kostyumda idi. Boynundan da bürüşmüş, nimdaş bir qalstuk sallanmışdı. Əlqərəz, pul qoyub bir araq aldıq. Elə mən butulkanı açmaq istəyirdim ki, qalstuklu dedi:

– Bəs stəkan?

Dedim:

– A kişi, şüşədən ayrı ləzzəti var.

Dedi:

– Yaxşı deyil, baxan nə deyər, gedək stəkan tapaq.

Bir həyətə girdik. Qalstuklu adam tanışlarının birinin evinə girib stəkan aldı.

Tələm-tələsik şüşənin ağzını açmaq istəyirdim ki, zatına lənət olmuş "üçüncü" dilləndi.

– Bəs zakuska? Zakuskasız ölərik.

Bəli, indi də getdik, zakuska axtarmağa.

Tərəvəz mağazasının qabağında bir qoca arvad duzlu xiyar satırdı. Duzlu xiyar, nə xiyar, prosto, məcun!

Nə isə, ondan da birini götürdük. Bu dəfə də təzə dostumuz cığallığını yerə qoymadı. Ayaq üstə yaxşı deyil, – dedi. Gəlin bir skamya tapaq, adam kimi içək.
Axı, biz mədəni adamlarıq. Daha gördük etirazın yeri yoxdur, cəhənnəmə ki, deyib getdikskamya axtarmağa.

Bəli, o gün bu qalstuklu nadan az qala burnumuzdan gətirdi arağı.

Yolda köhnə şüşə dostlarımdan biri rastımıza çıxdı. Kişinin oğlu möhkəm vurub uzanmışdı, özüyçün çəmənlikdə. Bala-bala xorna çəkirdi. Lap paxıllığım tutdu. Hirs vurdu təpəmə, nə vurdu. Ç evrilib hirsimi tökdüm qalstukluya.

– Ə, mədəni adamlar, budey, bunun kimi çoxdan istirahət edirlər, biz isə hələ də oturmağa yer axtarırıq.

Və elə o saat şüşənin ağzını açdım.

* * *

** «Gözüm ondan su içmir» nə deməkdir?*

** İçkiyə qurşananların taleyi necə olur? Fikrinizi əsaslandırarkən şəkli nəzərə alın və müqayisə edin.*

** «Zakuska», «məcun» sözlərini mənalandırın.*

** «Gəlin bir skamya tapaq, adam kimi içək. Axı, biz mədəni adamlarıq» – cümlələrini mənaya görə müqayisə edin.*

** «Qalstuklu zırrama» ifadəsinə münasibət bildirin.*

** Dostun köhnəsi varmı?*

** «Köhnə araq dostları» kimlərə deyilir?*

* * *

***Mədəni adam kimdir?***

*a) səliqəli, qalstuklu geyinən;*
*b) az danışan;*
*c) davranışı ilə nümunəvi olan.*

***İnsanın ağlını korlayan nədir?***

*a) şirin söz;*
*b) spirtli içki;*
*c) yuxusuzluq.*

# BALAMIRZƏ YAZANDI



Mən Balamirzəni uşaqlıqdan tanıyırdım. Qonşu idik. Eyni məktəbdə oxumuşduq. O məndən 8-9 yaş böyük idi. Əsgər gedib qayıtmışdı. Mən isə ondan sonra borcumu yerinə yetirmişdim. Ermənilər bizim respublikaya basqın edərkən mən hazırlaşdım cəbhəyə getməyə. Balamirzə əkildi. Soraqlaşdılar, tapılmadı. Dedilər qonşu kənddə işə düzəlib, hərbi müəllim işləyir. Ancaq kənddə kim ayağın yan qoyan kimi qoyur qələminin ucuna, yazır yuxarı təşkilatlara, yarı doğru, yarı hap-gop, ancaq, yazırdı. Özü üçün qəribə bir ad da qazanmışdı: "Balamirzə yazandı". Balamirzə o qədər məşhurlaşmışdı ki, kənddə rəhbər kolxoz və sovet işçilərindən narazılığı olanlar da Balamirzəni beləlirinə qorxu gəlir və çox zaman fürsət tapıb faktı ona deyirdilər, Balamirzə də yazırdı. Kəndin rabitə şöbəsi də hər gün bu məktubları rayon poçtuna aparırdı. Doğrusu, mən belə söz-söhbətlərə inanmırdım. Deyirdim ki, kişinin adı çıxıb. Havayı yerə deyilməyib ki, "kişinin adı çıxınca canı çıxsa yaxşıdır". Kənd yerində

kimin kimdən acığı gəlir, günahı yıxırlar Balamirzənin üstünə. Xüsusilə, kolxozun, sovxozun rəhbər işçiləri. Bəzən bir-birilərindən acıqları gəlir, özləri yazdırırlar, imzanı qoyurlar «Balamirzə». Beləliklə, kişinin böyük bir demaqoq kimi məşhurlaşdırıblar – deyə fikirləşirdim. Indiki demokratiya, söz azadlığı da bir bayraq olmuşdu adamların əlində. Belə mühakimələrə uymağı yersiz hesab etdim. Işlərimi sahmana salıb hərbi komissarlığa getdim. Xahiş etdim ki, məni Qarabağa göndərsinlər. Istəyirdim özümü ermənilərə göstərim. Axı, doğrudan da kişilik deyil bu, dinc əhaliyə hücum et, arvad uşağı əsir elə, ev-eşiyini də talan elə, apar. Həm də öz gücünlə yox, başqasının, zəncilərin və digər əcnəbi muzdlularınhesabına.

Hərbi komissarlıqda məni yaxşı qarşıladılar. Amma həm də mənə dedilər ki, Balamirzə adlı bir adam səndən ərizə yazıb. Guya mən hərbi komissara rüşvət verib özümü əsgərlikdən saxlatdırmışam. Inanmadım, necə inanaydım ki, mən könüllü, öz ayağımla gəlib əsgər gedirdim. Burda məlumata, ərizəyə heç bir ehtiyac

yoxdur. Əhəmiyyət vermədim. Qoşulub könüllülərlə getdim Qarabağa. Laçın istiqamətində döyüşlərdə iştirak etdim. Mən müəyyən döyüş təcrübəsinə malik idim. Komandir məndən razı idi. Ü ç aydan çox döyüşdüm. Döyüşlərin birində çiynimdən yaralandım. Məni çox çətinliklə hərbi hospitala yola saldılar. Yaramın sağalması xeyli çəkdi. Ç ünki məni yaralayan adi güllə deyilmiş, başqa tərzdə hazırlanıbmış. Nəhayət, mən icazə alıb bir neçə günlüyə evə gəldim.Kəndyerində hamı bir-birini tanıdığı üçün dərhal gəlişimdən xəbər tutaraq bütünqohum-əqrəba məni qarşıladı.Qurban kəsildi. Aradan çox keçməmiş hərbi komissarlıqdan yanıma görüşə bir zabit gəldi. O, əlində yazılı məlumat gətirmişdi. Məlumatda yazmışdılar ki, guya mən özüm-özümü yaralamışam ki, əsgərlikdən geri qayıdım. Imza: Balamirzə. Həmin o gün xoş təsadüfdən Balamirzə də bir neçə adamla mənimlə görüşmək üçün bizə gəlmişdi. Iş belə gətirdi ki, hərbi komissarlıqdan gələn zabit əhvalatı gizlətmədi. Hamı təəccüb etdi. Məlumat bir yana

qalsın, adam özünü çiynindən necə vura

bilərdi? Məlumat əldən-ələ gəzdi və hətta Balamirzə özü də baxdı və arsız-arsız gülüb dedi:

– Mən yazmışam, imza da mənimdir. Ancaqsən sübut et ki, düz yazmamışam.

Hamı susdu, heyrət etdi. Amma Balamirzə isə xəbis-xəbis hey gülürdü.

* * *

** Balamirzənin xarakterik xüsusiyyətləri hansılardır?*

** Ona vətənpərvər demək olarmı? Fikrinizi əsaslandırın.*

** Sizin Balamirzə kimi tanışınız varmı?*

** Balamirzənin əsas peşəsi nə idi?*

** Azərbaycanımızın uğurlu gələcəyinə sevinməyənləri kimə bənzədərdiniz?*

** Balamirzədən söhbət açan adsız insanı necə adlandırardınız?*

** «Balamirzə yazandı» hekayəsində xeyirxahvə bədxah fikirləri seçin.*

** Bir torpağın övladı olan, suyunu içən, havasını udan iki obrazı səciyyələndirin.*

** Şəkildəki personajlara diqqət edin, onları gördüyünüz formaya əsasən xarakterizə etməklə, keyfiyyət baxımından təhlil aparın.*

* * *

***Laçın xain düşmənlər tərəfindən nə vaxt işğal olunmuşdur?***

*a) 18 may 1992-ci il;*
*b) 20 iyun 1992-ci il;*
*c) 16 may 1992-ci il.*

***Balamirzə kimdir?***

*a) vətənpərvər;*
*b) satqın;*
*c) yalançı.*

# YAXŞISI BUDUR, DÖZƏK!



Mənim dostum Cənubi Krımın sanatoriyalarının birində yaxşıca istirahət edib Bakıya qayıtmaq üçün Simferopol şəhərinə gəlir. Təyyarə gecikdiyindən aeroportda bir xeyli gəzişir və istər-istəməz oranın tualetindən istifadə etməli olur. Yerli kooperativlər aeroportun tualetini elə bəzəyibmişlər ki, hər hansı böyük təşkilat buna həsəd apara bilərdi. Billur vazalarda qərənfillər, dörd tərəfi güzgü, gur yanan çıraqlar elə gözəl görünürmüş ki... Bir sözlə, içəri daxil olmaq üçün verdiyi 15 qəpiyə heç heyfi gəlmir.

...Amma susuzluğunu yatırmaq üçün bufetə gələndə və bir stəkan çayın 3 qəpiyə satıldığını görəndə bu təmtərağın arxasında dayanan hiyləni dərhal başa düşür və öz-özünə and içir ki, mən kooperativlərin hiyləsinə uymaram. Ona görə də çay içməkdən imtina edir. Imtina edir ki, təzədən 15 qəpik xərcləməsin. Və yol yoldaşına da məsləhət görür ki, yaxşısı budur, dözək!

* * *

** Sizin şəkildəki obrazların halına düşən vaxtınız olubmu?*

** Krım dünya xəritəsində harada yerləşir?*

** Onlar nə üçün Simferopol aeroportunda gəzişirdilər?*

** Kooperator kimlərə deyilir?*

** Bizim Bakının gözəlliklərindən nə deyə bilərsiniz?*

** Bakıda son illər diqqəti çəkən hansı quruculuq işlərini nümunə gətirərdiniz?*

* * *

***Onlar nə üçün çay içmədilər?***

*a) xidmətin zəifliyinə görə;*

*b) tələsdikləri üçün;*

*c) sonrakı xərclərinə görə.*

***Respublikamızın hansı şəhərində dünya standartlarına cavab verən hava limanı tikilir?***

*a) Qubada;*
*b) Lənkəranda;*
*c) Qazaxda.*

# HƏBIB DAYI VƏ MÜDIR BƏY



İdarənin müdiri hər dəfə "yenidənqurma" sözünü eşidəndə birtəhər olurdu. Saatlarla düşünüb-daşınır, lakin bir nəticəyə gələ bilmirdi. Yüz ölçüb bir biçirdisə alınmırdı ki, alınmırdı. Yenidənqurma barədə işdə bir şey tətbiq edə bilmirdi. Lakin o, vəzifədə həmişə qabaqcıl sıralarda addımlamağı xoşlayırdı. Ç oxlu mülahizələr söyləməyi, uzun-uzadı mübahisə etməyi, çoxlu adam dəvət etməklə tez-tez iclaslar keçirməyi və ən əsası, yuxarı təşkilatlara tez-tez gördüyü işlər haqqında məlumat verməyi üstün tuturdu. Ancaq elə bil bu zəhrimar yenidənqurma ilə çətinliyə düşmüşdü. Elə bil tilsimə salınmışdı. Heç nəyi yenidən qura bilmədiyindən yuxarı təşkilatlara da məlumat verə bilmirdi. Mat-məəttəl qalmışdı. Ovqatı bərk qarışmışdı. Iş gətirməyəndə gətirmir də...

Növbəti iş günlərinin birində iş otağında o yan-bu yana gəzişərkən, ətrafdakı əşyalar onun diqqətini cəlb etdi. Və qəti qərara gəldi ki, otaqdakı mebellərin yerini dəyişsin, bir başqa cür yerləşdirsin və beləliklə də iş otağını yenidən qursun. Onun fikrincə, bu tədbiri çox xoşa gələr, bəyənilər və bu, yenidənqurmanın bünövrəsi, əsası ola bilər...

Müdir öz «kəşfindən» xeyli xoşhallanaraq yerində oturub dərindən nəfəs aldı və kresloya yayxanıb yavaş-yavaş o tərəf-bu tərəfə xeyli baxdı, otaqdakı əşyaların yerini necə dəyişəcəyini təsəvvüründə canlandırıb «ətraflı» götür-qoy etdi. Bütün dəyişikliklər onun beynində hazır olandan sonra təsərrüfat müdirini yanına çağırdı. O, əlində qələm-kağz içəri girəndə müdir dilləndi:

– Iş otağımı yenidən qurmaq lazımdır. Kitab şkafı, bax, bu divarın yanında, seyf orada, masa da burada olmalıdır. Mənim fikrimcə, hər yerdə yenidənqurma ilk

növbədə iş otağından başlanmalıdır. – O öz sözündən ləzzət alırmış kimi davam elədi. – Bəli, bəli, bu böyük kəşfdir. Mənim kəşfimdir. Yenidənqurma özüldən başlanmalıdır. Bizim özül də idarədir. Mənim otağımdır. Burdan başlasaq, deməli, başqa işlərimizi də bu cür yenidən qurarıq. Mən nazirliyə də bu barədə məlumat verəcəyəm.

Təsərrüfat müdiri uzun müddət idarə rəhbəri işləmiş yaşlı kişi Həbib dayı idi. Həbib dayının təqaüdü onu təmin etmədiyindən burada işləyirdi, yenidənqurma haqqında onun müdirinin bu cür bəsit düşünməsi və belə sərəncam verməsi, hətta yuxarıya – nazirliyə də məlumat verməyə hazırlaşdığını eşidəndə öz-özünə daxilən götür-qoy etdi. Gözlərini naməlum bir nöqtəyə dikərək deməyə bir söz tapmadı. Aralarında sükut çökdü. Müdir fırlanan kreslosunda hərləndikcə Həbib dayı da fikirləşirdi: "Ilahi, görəsən, yenidənqurmanı bu cür başa düşən

müdirin axırı necə olacaq. Görəsən, nazirlik bu məlumata necə baxacaq…"

Onun gec dilləndiyini görən müdir gözlərini qıyıb bu yaşlı kişiyə mənalı-mənalı baxdı:

– Hə, darıxma, Həbib dayı. Bilirəm sən niyə tərəddüd edirsən. Nazir də bizim adamdır. Nə deyəcək. Məni alqışlayacaq. Bizdəndir də, bəydir, bəy. Baxma nazir stolunda əyləşib. Bir vaxtlar mənim sürücüm olub. Ağzı nədir etiraz eləsin. Hə, işində ol.

Həbib dayı xeyli susandan sonra cavab verdi:

– Nazir sizlərdəndir, deməli, bəydir. Ona görə arxayınsınız...

* * *

** Həbib dayının cəsarətli duruşu, müdirin baxışı barədə nə deyə bilərsiniz?*

** «Yenidənqurma» sözünü aydınlaşdırın.*

** İdarənin müdiri yuxarı təşkilatlara nəyə görə məlumat verə bilmirdi?*

** Müdirə görə yenidənqurma necə olmalıdır?*

** Həbib dayı kimdir?*

** Yenidənqurma dövründə müdirin naziri kim olub?*

** Müdir nazirinə qarşı nə səbəbdən ərkyanalıq edir?*

** «Nazir bizdəndir» ifadəsi nə deməkdir?*

* * *

***Nazir necə olmalıdır?***
*a) dərin bilikli və bacarıqlı;*
*b) qohumcanlı;*
*c) ağsaqqal.*

***Həbib dayını təəssüfləndirən nə idi?***
*a) səmərəli fikirlər;*
*b) məntiqsiz hərəkətlər;*
*c) uzaqgörənlik.*

# A R A Y I Ş



İşdən gec gəlmişdim. Uşaqlar "Gecəniz xeyrə qalsın, balalar" verilişinə baxıb yatmışdılar. Dostum Əhmədgilə zəng etdim. Həyat yoldaşı Firəngiz xanım cavab verdi:

– Al\o, kim lazımdır?

– Əhməd evdədir?

– Xeyr, Əhməd evdə yoxdur. Hələ işdən qayıtmayıb.

– Necə? – deyə mən təəccüblə soruşdum. – Indiyədək işdən gəlməyib?

Haçandan-haçana

– Yaxşı, o işdən gec gələndə arayış gətirirmi? – dedim.

– Yox! – deyə Firəngiz xanım özünəməxsus nəzakətlə cavab verdi.

– Yox, bacım, bu olmadı ki. Mən evə lap bir saat gec gələndə də yenə işdən arayış gətirirəm.

– Lap möhürlü? – Firəngiz xanım təəccüblə soruşdu.

– Bəli, möhürü də üstündə. Yaxşı sağ olun, bacım. Əhməd evə gələndə mənə

zəng eləsin, – deyib telefonun dəstəyini yerinə qoydum.

Bu söhbətdən sonra arvadım məni danladı ki, niyə belə etdin ki, axı Firəngiz xanım zarafat götürmür.

Səhər tezdən həmişəki kimi işə tez getdim. Stolun üstünü yır-yığış etmək istəyirdim ki, telefon zəng çaldı. Danışan arvadım idi. Dedi ki, indicə Əhməd müəllim evə zəng eləmişdi. Məndən soruşdu ki, Elmira bacı, Sabir evə gec gələndə arayış gətirir, ya yox? Mən də ona cavab verdim ki, Əhməd qardaş, nə arayış, görünür, sən zarafat edirsən. Dedi ki, həqiqi sözdür. Gördün, sənə demədim ki, Firəngiz xanım zarafat götürmür?

Bir az keçməmiş telefon zəng çaldı. Dəstəyi qaldırdım. Əhməd idi. Salam-kəlamsız mətləbə keçdi.

– Məgər sən evə gec gedəndə arayış aparırsan?

– Bəs necə!

Yaxşı, onu sənə kim verir?

– Kim verəcək, əlbəttə ki, kadrlar şöbəsi.

Əhməddən səs gəlmədi, odur ki, təzədən "hücuma" keçdim.

– Ayıb deyil səninçün, evə gec getməyin bəs deyil, hələ evə arayış da aparmırsan!..

– Əşi, ayıb mənimçün olsun?! Ay səni!..– deyib uğundu.– Sabir, sənin canunçün, arvad pişiyimi ağaca dırmaşdırıb, məni bu gecə yatmağa qoymayıb. Elə hey deyir ki, hanı sənin arayışın, deyirəm ki, ay arvad, Sabir zarafat edib, tanımırsan onu, it oynadanın biridir. Indi onu başa sal görüm necə salırsan.

Yəqin etdim ki, dostumun arvadı zarafat başa düşmür.

* * *

** Evə vaxtında gəlməyəndə şəkildəki kimi qarşılanırsınızmı?*

** Arayış nə vaxt və hansı məqsədlə lazım olur?*

** Siz arayışdan istifadə etmisinizmi?*

** Sabirin fikrincə, dostu Əhməd işdən evə qayıdanda nə üçün arayış gətirməli idi?*

** Sabirin Əhmədlə «arayış» əhvalatını necə dəyərləndirərsiniz?*

** Siz işdən evə nə vaxt qayıdırsınız?*

** Evə vaxtında qayıtmamağın səbəblərini sadalayın.*

** Evə vaxtında qayıtmayanda ailədə narahatçılıq olurmu? Fikrinizi əsaslandırın.*

* * *

***Evə gec qayıtmaq olarmı?***

*a) olmaz;*

*b) olar;*

*c) olar və olmaz.*

***«Arayış» əhvalatına inam nə ilə bağlıdır?***

*a) təsadüflə;*

*b) sadəlövhlüklə;*

*c) inamsızlıqla.*

# I M T A H A N



Mən institutda dərs deyirdim və ildə iki dəfə imtahan götürürdüm. Imtahan götürmə prosesi getdikcə sadələşirdi. Bu işdə mənə get-gedə çoxalan tanışlarım kömək edirdilər. Imtahana 10–15 gün qalmış, telefon zənglərinin ardı-arası kəsilmirdi. Zənglər səhər başlayır və gecə yarısına qədər davam edirdi. Bazar günləri isə heç istirahətim olmurdu. Bütün zəng edənlər mənə imtahan verən tələbələrə güzəştə getmək haqqında xahiş edirdilər. Ildən-ilə güzəştlə imtahan verənlərin sayı çoxalırdı. Bu da məni çox narahat edirdi. Mən ciddi qərar qəbul edib çıxış yolu tapmalı idim. Imtahan günü bütün tələbələri auditoriyaya dəvət etdim. Hamı oturdu və diqqətlə mənə baxırdılar. Mən qrup nümayəndəsinə dedim:

– Zaçot kitabçalarını yığıb mənə verin. Siz hamınız imtahanı «əla» qiymətlə vermisiniz.

Həmişə bütün dərslərdən «əla» qiymətlər almış qrup nümayəndəsi mənə təəccüblə baxırdı.

– Bəli, bəli, siz hamınız «əla» qiymət almısınız – deyə mən qətiyyətlə dedim.

– Auditoriyada elə sakitlik çökmüşdü ki, sanki ətrafda heç kəs yox idi. Hamı başını aşağı dikmişdi, utanırmışlar kimi sanki heç nəfəs də almırdılar. Heyrətdən qaşları yuxarı dartılmış qrup nümayəndəsi yavaşca soruşdu:

– Nə olmuşdur, müəllim?

– Heç nə, – deyə mən dilləndim. Qrupunuzda 28 nəfər tələbə var. 26 nəfər üçün məndən xahiş olunub ki, onlara imtahan vaxtı güzəşt edim. Ikisini də mən özüm tapşıraram. Indi isə hamı bərabər vəziyyətdədir. – Bir anlıq pauzadan sonra əlavə etdim. – Mən belə görürəm ki, valideynə, tələbəyə bilik lazım deyil, qiymət lazımdır. Belə olduqda bizim baş çatdatmağımız nə üçündür?! Axı, biz

mütəxəssis hazırlayırıq. Doğrudurmu? Başqa millətlər bu yolla getmirlər. Bu yolla Kurçatovlar, Mendeleyevlər, Eynşteynlər yetişdirmək olarmı?! Qəbul imtahanında güzəşt, semestr imtahanlarında güzəşt, zaçotlarda güzəşt, bəs təhsil, bilik necə olsun, əzizlərim?! Fizika elmdir, bunu öyrənmək üçün can qoymaq lazımdır. Daha tapşırmaq üçün adam axtarmaq yox! Kim zəng eləyir, qoy eləsin! Biliksiz tələbəyə güzəşt olmayacaq! Indi həqiqi imtahanlara başlayaq. Birinci sən özün bilet çəkməyə gəl, qalanları da жurnal siyahısı üzrə, – deyə qrup nümayəndəsinə müraciət etdim.

Qrup nümayəndəsi bir söz belə deməyib gözlərini yerə dikdi.

Həqiqi imtahan götürdükcə özümdə bir yüngüllük hiss edirdim.

* * *

** Şəkildə tələbənin inamsız oturmasının səbəbi nədir?*

** Siz həyatda hansı imtahanlarla üzləşmisiniz?*

** Müəllimlərinizə münasibətiniz necədir?*

** Müəllimin «dostlarının» sayının ildən-ilə artması nə ilə bağlıdır?*

** Sizdən imtahan götürmüş müəllimlərinizdən razısınızmı? Fikrinizi əsaslandırın.*

** Müəllimin arzusu nədir?*

** Kurçatovlar, Mendeleyevlər, Eynşteynlər yetişdirmək üçün nə etmək lazımdır?*

** Siz verdiyiniz imtahanları necə xarakterizə edirsiniz?*

* * *

***İmtahan necə olmalıdır?***

*a) səthi;*

*b) şəffaf;*

*c) yoxlayıcı.*

***Əsl imtahan nəyə əsaslanır?***

*a) imkanlara;*

*b) rütbəyə;*

*c) real biliyə.*

# BƏS TƏHQIR OLUNMUŞ QALIM?!



Prokuror mühüm tapşırıq almışdı. O, yuxarıların əməli işinə kömək etmək üçün arayış hazırlamalı idi. Ona görə də heç kimi qəbul etmirdi. Mən də vacib bir hüquqi məsləhət üçün onun yanına getməli və onunla görüşməli idim. Katibədən xahiş etdim ki, mənə kömək etsin. Katibə söz verdi və mənə dedi ki, gözlə. Özü durub içəri girdi.

– Yoldaş prokuror, bir vətəndaş iki gündür ki, sizin qəbulunuza düşmək üçün bərk xahiş edir. Mümkünsə...

– Dəvət edin içəri, – deyə çox yorğun halda prokuror katibəyə cavab verdi.

Mən bu ehtirama görə katibəyə təşəkkür edib içəri daxil oldum. Salamlaşıb stola yaxınlaşdım. O, yorğun görünürdü. Stulu göstərib oturmağıma işarə etdi və dedi:

– Əyləşin, söyləyin görüm dərdiniz nədir?

Mən bu rəftardan məmnun oldum və dedim:

– Yoldaş prokuror, məni bir adam möhkəm təhqir edib. Elə təhqir edib ki, heç danışılası deyil. Nə gecəm var, nə

gündüzüm. Özümü ələ ala bilmirəm. Ona görə də gəlib sizdən məsləhət almaq istəyirəm. Mən bilmirəm nə edim? Istəyirəm həmin alçağı məhkəməyə ve- rəm. Bəlkə siz daha düzgün yol tapmaqda mənə kömək edəsiniz.

– Şahidin var?

– Yox, heç kim. Dübədü olmuşuq.

Prokuror qaşlarını çatıb əlini təzə ağarmağa başalyan bığlarında gəzdirdi. Üz-gözünü turşutdu:

– Sən ikilikdə təhqir olunmusan. Bunu sən bilirsən, bir də təhqir edən. Indi də mən bildim. Məhkəməyə versən, bütün aləm biləcək. Yaxşısı budur ki, get evinə, özünü yorma, yaddan çıxart bu hadisəni, – dedi.

O, bir neçə an fikrə gedəndən sonra yazıqcasına soruşdu:

– Bəs indi təhqir olunmuş qalım?!

* * *

** Şəkildə təsvir olunmuş təhqir olunmuşungörkəmi barədə nə deyə bilərsiniz?*

** Vətəndaş neçə gün idi ki, qəbula gəlirdi?*

** «Təhqir» dedikdə, nə başa düşürsünüz?*

** Sizi kimsə (və ya əksinə) təhqir edibmi? Səbəbini ədalətlə açıqlayın.*

** Şahidin vəzifəsi nədir?*

** Prokuror nə üçün əlini təzə ağarmış bığlarında gəzdirirdi?*

** Təhqirin ümumiləşməsinə münasibət bildirin.*

* * *

***«Yaxşısı budur ki, .... yaddan çıxart bu hadisəni» nə deməkdir?***

*a) hadisəni gizlətmək;*
*b) hadisəni unutmaq;*
*c) hadisəni yadda saxlamaq.*

***Təhqir olunmuş qalmaq olarmı?***

*a) olmaz;*
*b) olar-olmaz;*

*c) olar.*

# ÜÇ ÜNC
# Ü ADA
# M


KAFE

Idarəmizin yaxınlığında bir kafe var. Yaxın olsa da, ora çox nadir hallarda gedirəm. Çünki burada ayaqüstü durub qəlyanaltı edənlər o qədər papiros çəkirlər ki, tüstüdən nəfəs almaq olmur, bir də ki, içki içməyi çox da xoşlamıram. Bu gün vaxtım az olduğundan fasilə zamanı evə getməyi təxirə salıb həmin kafedə nahar etməyi qərara aldım. Idarədən çıxıb yola düzəldim. Gedəndə hey fikirləşdim ki, kafedə tanış adam rast gəlməsin, çünki mən tələsirdim. Kafeyə yaxınlaşanda iki nəfərin dayandığını gördüm. Sanki onlar kimi isə axtarır və gözləyirdilər. Yaxınlaşanda mənə elə gəldi ki, tanışdılar, ona görə də gözlərini məndən çəkmirlər. Onların mənə baş əyməldəri (salam əvəzi) sanki hər şeyi təsdiq etdi. Mən də şəstlə onların salamını aldım. Onlar mənimlə bir yerdə kafeyə girdilər. Boş bir stolun yanında üçümüz də üz-üzə dayandıq.

Mənə tanış gələn arıq, göygöz kişi:

– Iki manat ver , – dedi.

Mənə elə gəldi ki, o, nahar eləmək üçün məndən pul istəyir.

Cibimdən iki təklik çıxarıb ona verdim. Həmin adam cəld bufetdən bir araq və qalın şüşədən düzəldilmiş üç böyük stəkanı alıb stolun üstünə qoydu. O biri isə cibindən kağıza bükülmüş kiçicik bir quru balıq çıxarıb ortaya qoydu. Arağı stəkanlara süzüb yuxarı qaldırdılar. Mən də özümü sındırmayıb stəkanı götürdüm. Məndən pul alan kişi "Bunu içək müəllimin sağlığına", – deyib ikisi də araqla dolu stəkanı başlarına çəkib ovcunun arxasıyla ağızlarını silə-silə dərindən nəfəs aldılar. Mən də bir-iki qurtum içib stəkanı yerə qoydum. Stolun üstündəki balığı götürüb ağzıma aparıb dadmaq istəyəndə sağlıq deyən kişi onu bir göz qırpımında əlimdən qapdı və dedi:

– Aclıqdan çıxmısan? Elə bil ki, yeməyə gəlmişik.

Sonra da həmin balığı əlindən buraxmadan əvvəlcə yoldaşının burnuna yaxınlaşdıraraq iylətdi, sonra da özü həmin hərəkəti təkrarladı, sonra balığı təzədən kağıza büküb cibinə qoya-qoya yoldaşına dedi:

– Gedək. Sənə demədim müəllimdən üçüncü adam çıxmaz.

Onlar bir-birinin qoluna girib kafedən çıxdılar. Utandığımdan daha orada dayanmayıb mən də işə qayıtdım.

* * *

** Şəkildə təsvir olunan vəziyyəti xarakterizə edin.*

** Kafe nə deməkdir?*

** Kafedən istifadə edirsinizmi?*

** Siz təsadüfi rastlaşdığınız adamlarla kafedə bir stolda yemək yeyərsinizmi?*

** İlk dəfə tanış olduğunuz adamdan pul almaq nə deməkdir?*

** Üçüncü adam və onunla kafedə oturanlar kimlərdir?*

* * *

***Kafedə baş vermiş hadisədə məsuliyyət kimin üzərinə düşür?***

*a) üçüncü adamın;*

*b) «tanışların»;*

*c) hər üçünün.*

# V Ə D



Qışda bizim ev soyuq olur. Əlimiz nə oduna çatırdı, nə də meşəyə... Əziyyət çəkirdik, məcbur olub müxtəlif təşkilat rəhbərlərinə müraciət etməyimə baxmayaraq, heç kim kömək etmədi. Amma bol-bol vəd verdilər. Vəd etdilər ki, kömək edəcəklər. Yağışdan sonra evimiz dammağa başladı. Vəziyyətimişz daha da ağırlaşdı. Damdan su üstümüzə damcı-damcı tökülürdü. Mən bu damcıların altına bir vedrə qoydum. Getdim icra hakimiyyəti başçısının yanına. Böyük növbə var idi. Ç ətinliklə qəbuluna düşdüm. Ç ox böyük otağın başında güclə görünən bir şəxs oturmuşdu. Onun oturduğu masaya yaxınlaşdım. O durub mənimlə görüşdü, oturmaq üçün yer göstərdi. Qarşısında əyləşdim. O isə hələ oturmamış telefonların biri zəng çaldı. Yerində əyləşib telefon dəstəyini götürdü və danışmağa başladı:

– Dinləyirəm. Bəli... bəli... biz bilirik, tədbir görərik. Nə? Yazmısız? Haraya? Bizə? Lap yaxşı. Mütləq tədbir görərik – deyib dəstəyi yerinə qoydu.

Mən öz vəziyyətim barədə yenicə danışmaq istəyirdim ki, telefon yenidən zəng çaldı. O yenə dəstəyi götürüb cavab verdi:

– Eşidirəm. Bəli... bəli... biz də bilirik, həll edərik, mütləq nəzərə alarıq. Sağ ol, – deyib dəstəyi yerinə qoydu.

Mən yenə də evimin damdığından danışmağa başlamışdım ki, yenə də telefon zəng çaldı.

– Eşidirəm. Bəli... bəli... Nə, siz üçüncü dəfə yazırsınız? Haraya? Bizə? Lap yaxşı. Nə? Tədbir görmürük? Nə danışırsız! Sizin damı təmir etmək üçün bu gün qərar qəbul edərik. Nə? Sizə qərar lazım deyil, damın təmiri lazımdır? Düz deyirsiniz. Sizə damın təmiri, bizə isə qərar lazımdır, qərar. Hər şey yaxşı olar. Adamlar illərlə gözləyirlər. Siz isə cəmi

altı aydır yazmısınız. Aylarla, illərlə gözləyənlər var, nə edək, – deyə dəstəyi yerinə qoydu. Təzədən zəng oldu. Bu dəfə icra hakimi həlim danışdı. Deyəsən evindən həyat yoldaşı zəng vurmuşdu. Evlərinə təzə rəng çəkdirmək üçün ustaya pul vermək barədə danışırdılar. – Eybi yoxdur, ver o məbləği. Ancaq de ki, rəngi, bəzəyi biz deyən kimi olsun... – deyə dəstəyi yerinə qoyub məni unudubmuş kimi öz-özünə «vallah-billah, bu sənətkarlar adamı lap soyurlar...» Mənə tərəf çevrildi:

– Eşidirəm sizi...- o, saatına baxdı və sözünə davam etdi. - Daha sizi dinləməyə vaxtım yoxdur, mən iclasa tələsirəm. Həmin iclasda sizin məsələləri də həll edərik. Hamısını mənə yazın. Biz isə ətraflı qərar qəbul edərik. Sonra qərara əsasən işə başlayarıq və evinizi də təmir edərik...

Mən razılaşmadım və dedim ki, ev bu saat suyun içindədir.

– Eyib etməz, biz qərar qəbul edərik, sonra işə başlarıq, – deyib məni uzun dəhlizdə saxladı, özü isə getdi. Mən dəhlizdə dayanıb onun dalınca xeyli baxdım. O məndən uzaqlaşdıqca bu boylu-buxunlu rəhbər işçinin heykəli gözümün önündə əridi, kiçilib heçə döndü. Öz-özümə düşündüm: evin damması bir yana, belə rəhbərlərin əlinə düşmüş yüzlərlə, minlərlə ehtiyacı olan vətəndaşın taleyi necə olacaq görəsən?!

* * *

** Şəkildə təsvir edilmiş obrazları müqayisə edin.*

** Vəd etmək nədir?*

** Siz həyatda vəd etmisinizmi? Nəticəsi necə olub?*

** Məmurun qəbulunda olan vətəndaşın xahişi nə idi?*

** Vətəndaş nələrin şahidi oldu?*

** Vətəndaşa məmurun cavabı necə oldu?*

** Siz həmin vətəndaşın yerində olsaydınız hansı addımı atardınız?*

** Siz məmur olsaydınız vətəndaşlarla necə rəftar edərdiniz?*

** Vətəndaş nə üçün sonda məmurun təklifi ilə razılaşmadı?*

** Məmurun vətəndaşın gözü qarşısında kiçilməsinin səbəbi nədir?*

* * *

***İnsanı ucaldan nədir?***

*a) təhsili;*
*b) düzlüyü;*
*c) vədləri.*

***Vəd necə olmalıdır?***

*a) boş-boşuna;*
*b) tez-tez;*
*c) doğru-düzgün.*

## MÜNDƏRİCAT

*Ön söz (Ş.Ağayev)* .................................*3*

Qovaq ağacı ..........................................3

Mədəni adam .......................................13

Balamirzə yazandı ................................17

Yaxşısı budur, dözək............................ 23

Həbib dayı və müdir bəy .....................27

Arayış .................................................33

İmtahan ................................................39

Bəs təhqir olunmuş qalaq? ..................45

Üçüncü adam .......................................49

Vəd ......................................................53

Redaktoru: **Ş.Ağayev**
Texniki redaktoru və
üz qabığının dizayneri: **M.Abiyev**
Korrektoru: **T.Nəbiyeva**
Rəssamı: **Bulud**

**CƏFƏROV ŞƏDDAT MUĞDAT oğlu**
**iqtisad elmləri namizədi**

**AĞAYEV ŞAHRZA OĞUL oğlu**
**pedaqoji elmlər namizədi, dosent**

# HADİSƏLƏR... DÜŞÜNCƏLƏR

Ç apa imzalanmış 05.06.2008. Ofset çap üsulu. Formatı 70x90 $^1/_{32}$. Fiziki ç.v. 2. Sifariş 30. Tirajı 300.

« 3 saylı Bakı mətbəəsi » ASC-də çap olunmuşdur.

# Qeyd üçün